Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsi üzrə Qızılağac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Quliyeva Mina Yaqub qızının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 94 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri                                        03 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsi üzrə Qızılağac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Quliyeva Mina Yaqub qızının Mərkəsi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 94 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

Ərizəçi 03 yanvar 2015-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına müraciət edərək şikayətindən imtina etmiş, müraciətin araşdırılmasına xitam verilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci və "Azərbaycan Respublikası Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsindən Qızılağac bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Quliyeva Mina Yaqub qızı şikayətindən imtina etdiyinə görə 01 yanvar 2015-ci il tarixli 94 saylı müraciətin araşdırılmasına xitam verilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü                                        Tofiq Həsənov